DÜNYA

Tramp: 'Demokratlar qalib gəlsələr, Mister Veto olacağam'

Noyabr 02, 2026



ABŞ prezidenti Tramp Salina şəhərində seçki kampaniyası mitinqində.

ABŞ prezidenti **Donald Tramp** bildirib ki, noyabrın 3-də keçiriləcək aralıq seçkilərində Demokratlar Partiyası qalib gələrsə, o, Konqresin qəbul edəcəyi bütün qərarlara veto qoymaq niyyətindədir.

"Əgər bu baş versə, mən Mister Veto olacağam", – Tramp "Fox News" telekanalının aparıcısı Miranda Devaynın "Pod Force One" podkastına verdiyi müsahibədə deyib. Prezidentin fikrincə, bu cür ardıcıl vetolar demokrat konqresmenləri onunla razılaşmaya getməyə məcbur edə bilər.

Sabah – noyabrın 3-də ABŞ Konqresinə aralıq seçkiləri keçiriləcək. Rəy sorğuları Trampın Respublikaçılar Partiyasının demokratlardan geri qaldığını göstərir. Ehtimallara görə, demokratlar Nümayəndələr Palatasında böyük çoxluq, Senatda isə cüzi üstünlük əldə edə bilərlər.

Buna baxmayaraq, D.Tramp seçki kampaniyasında fəal iştirak edir və müxtəlif ştatlara səfərində seçiciləri respublikaçılara səs verməyə çağırır. O, hələ sentyabrda vəd etmişdi ki, respublikaçılar qalib gəlsə, hər bir yetkin amerikalıya 5 min dollar ödəniləcək. Tramp bu addımı "Tramp dividendi" adlandırıb.

Digər tərəfdən, oktyabrın ortalarında Trampın komandası Alyaska ştatında demokratların namizədi qalib gələrsə, seçki nəticələrinin etibarsız sayılması tələbi ilə məhkəməyə müraciət edib. Noyabrın 1-də federal hakim bu iddianı təmin etməyib.

Buna da bax:

Pentaqon Ukrayna ordusunun 'Starlink' rabitəsindəki kəsintiləri araşdırmaqdan imtina etdi

'The Atlantic': Tramp aralıq seçkilərindən sonra İrana yeni zərbələr planlaşdırır

Konqresmenlər banklara və limanlara Rusiya dizeli ilə bağlı xəbərdarlıq ediblər

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur